

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 may 2024-cü il №38 (2849) https://mod.gov.az Qiymət 30 qəpik


## Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

*Mayın 22-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.*



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Mayın 22-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ölkəmizə dövlət səfəri çərçivəsində Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

* * *

Azərbaycanda dövlət səfərində olan Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mayın 22-də Şəhidlər xiyabanını ziyarət edib.

Prezident Emoməli Rəhmon Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasına dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Tacikistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Prezidentinə raport verib.

Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Tacikistan Prezidenti Azərbaycan əsgərlərini salamlayıb.

Tacikistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyəti Tacikistan Prezidentinə, Tacikistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

* * *

Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Hörmətli Emoməli Şaripoviç.

Hörmətli qonaqlar.

Sizi Azərbaycan torpağında salamlamağıma şadam. Çox şadam ki, Siz mənim dəvətimi qəbul etdiniz və Azərbaycana dövlət səfərinə gəldiniz. Görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz Tacikistanda, Azərbaycanda tez-tez görüşürük. Mən ötən il bir neçə dəfə ölkənizə səfər etmişəm, həmçinin Sizin dəvətinizlə Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə toplantısında iştirak etmişəm. Siz, həmçinin ötən il Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın Zirvə toplantısı çərçivəsində ölkəmizdə səfərdə oldunuz. Beləliklə, yüksək səviyyəli təmaslar müntəzəm xarakter daşıyır və bu gün biz Sizinlə həm ikitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik. Aydındır ki, dövlət səfərinin xüsusi statusu var və bu, münasibətlərimizin bugünkü yüksək səviyyəsinin təzahürüdür. Həmçinin münasibətlərin inkişafında mühüm mərhələlərdən biri bu gün imzalayacağımız, bununla da münasibətlərimizin səviyyəsini rəsmi şəkildə yüksəldəcəyimiz Strateji Tərəfdaşlıq Bəyannaməsidir. Hərçənd qarşılıqlı münasibətlərin tarixinə və xarakterinə nəzər salsaq, onların çoxdan strateji tərəfdaşlıq xarakteri daşıdığını görərik.

Bizim hədəfimiz bütün istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyətdir. Bildiyiniz kimi, Sizin səfərinizdən əvvəl biznes-forum olub. Tacikistanın Azərbaycanda Mədəniyyət Günləri keçirilir. Bütün bunlar münasibətlərimizi konkret məzmunla zənginləşdirir. İqtisadi xarakterli bir neçə sənəd imzalanıb. Bu gün nümayəndə heyətlərinin üzvləri ilə müzakirələr çərçivəsində əlaqələrimizə daha çox məzmun əlavə etmək üçün bu gündəliyi ətraflı nəzərdən keçirəcəyik. Çünki ticarət dövriyyəsinin statistik rəqəmləri ilə tanış olduqdan sonra, əlbəttə ki, onların hələlik bizi qane edə biləcəyini deyə bilmərik. Düşünürəm ki, bizim bu gün Sizinlə, sonra nümayəndə heyətlərinin üzvləri ilə müzakirə edəcəyimiz məsələlər ticarət dövriyyəsinin artmasına kömək edəcək. Təbii ki, bizim müzakirə etdiyimiz mövzulardan biri də Tacikistanın və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunun yeni imkanlarının nəzərə alınması ilə nəqliyyat sektorunda əməkdaşlıqdır. Hesab edirəm ki, bu istiqamətdə səylərimizi birləşdirmək, addımlarımızı daha sıx əlaqələndirmək faydalı olacaq. Çünki Transxəzər nəqliyyat dəhlizi Avropa regionu və Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Azərbaycan isə Avropa ilə Asiyanın qovuşuğunda yerləşən birləşdirici ölkə kimi özünün nəqliyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır.

Gündəliyimiz kifayət qədər genişdir. Təkcə nümayəndə heyətlərinin tərkibi bizim hansı istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyət göstərdiyimizdən xəbər verir. Əminəm ki, nəticələr də çox yaxşı olacaq və səfər faydalı, həmçinin xoş keçəcək.

Bir daha xoş gəlmisiniz.

* * *

Prezident **Emoməli Rəhmon** deyib:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

İlk növbədə, hörmətli İlham Heydər oğlu, yüksək diqqətinizə və səmimi qonaqpərvərliyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Şadam ki, biz qarşılıqlı səfərlər ənənəsini yüksək səviyyədə davam etdiririk. Əminəm ki, bugünkü görüşlərin nəticələri ölkələrimizin əməkdaşlığını yeni inkişaf səviyyəsinə yüksəldəcək. Azərbaycan Tacikistanın etibarlı dostu və tərəfdaşıdır. Ölkələrimizi zamanın sınağından çıxmış münasibətlər birləşdirir. Bizim aktual regional və beynəlxalq məsələlərdə mövqelərimiz eynidir. Ölkələrimizin xalqlarının daha da yaxınlaşmasına yönələn humanitar əlaqələr fəal inkişaf edir.

Bu gün biz dövlətlərarası münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldən tarixi qərar qəbul edəcəyik. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun əsrlərdən bəri davam edən ənənələrinin ruhuna uyğundur. Bu qərarlar müstəqilliyimizin bütün dövründə qarşılıqlı fəaliyyətimizin irəliləməsində əldə olunan uğurları daha da möhkəmləndirir. Bu baxımdan qeyd etmək istərdim ki, bu prosesin başlanğıcını Azərbaycan xalqının Ümummilli Lideri, çox hörmətli Heydər Əlirza oğlu Əliyev qoyub. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar qardaş xalqlarımızın dərin maraqlarına cavab verəcək və Tacikistan-Azərbaycan münasibətlərinin möhkəm təməlinə çevriləcək. Sizə təşəkkür edirəm.

* * *

Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun və dövlət nümayəndələrinin iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub.

* * *

Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**(Ardı 2-ci səhifədə)**

# Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri



(Əvvəli 1-ci səhifədə)

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli Emoməli Şaripoviç.

Əziz dostlar.

Əziz qonağımız, Azərbaycanın böyük dostu, qardaş Tacikistanın Prezidenti Emoməli Şaripoviç Rəhmonu qəbul etmək bizim üçün böyük şərəfdir.

Bu gün nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə, həmçinin təkbətək görüş əsnasında qarşılıqlı fəaliyyətimizlə bağlı məsələlərin geniş spektrini müzakirə etdik, sənaye kooperasiyası, humanitar sahədə əməkdaşlıq üzrə iqtisadi xarakterli bir çox layihənin reallaşdırılmasına dair hökumətimizin üzvlərinə konkret tapşırıqlar verdik.

İlin sonunda Emoməli Şaripoviç yenidən ölkəmizə səfər edəcək, biz bir daha bütün məsələləri nəzərdən keçirəcək və verilən tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik. Mən Tacikistan Prezidentini noyabrda keçiriləcək iqlim konfransında iştiraka dəvət etdim. Bu dəvət qəbul olundu. Biz bu beynəlxalq tədbirin keçirilməsinə fəal hazırlaşırıq və Tacikistanın aktiv iştirakını gözləyirik. Əminəm ki, tacik dostlarımız bu konfransın uğurla keçirilməsinə və yaxşı nəticələr əldə edilməsinə böyük töhfə verəcəklər.



Qarşılıqlı fəaliyyətimizin əsasında çoxəsrlik tarix boyu əməkdaşlıq etmiş, dost olmuş, birlikdə qurub-yaratmış xalqlarımızın iradəsi dayanır. Bu gün dövlətlərarası münasibətlərimiz ən yüksək səviyyəyə çatıb.

Biz indicə münasibətlərimizin xarakterini, ruhunu, həmçinin xalqlarımızın iradəsini əks etdirən Strateji Tərəfdaşlıq Bəyannaməsini imzaladıq. Bəyannamə qarşılıqlı fəaliyyətin demək olar bütün sahələrini əhatə edir. Bu sənəddə qarşılıqlı dəstək və konkret nəticələrə diqqət ifadə olunub.

Bu gün iqtisadi əməkdaşlıq məsələlərini ətraflı müzakirə etdik. Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə yanaşı, daha 13 sənəd, ümumilikdə 14 sənəd imzalanıb ki, onlardan bəziləri burada, bəziləri isə əvvəllər imzalanıb. Bu, münasibətlərimizin müqavilə-hüquq bazasını xeyli möhkəmləndirir. Tacikistan Prezidentinin səfəri ərəfəsində biznes-forum keçirildi, bu forumda da sənədlər və qarşılıqlı anlaşma memorandumları imzalandı və bu barədə bu gün bizə məlumat verildi. Hesab edirəm ki, bu, bizə qarşılıqlı ticarətin həcmini xeyli artırmağa imkan verəcək.



Bu günlərdə keçirilən və bir neçə gün, təxminən bir həftə davam edəcək Azərbaycanda Tacikistanın Mədəniyyət Günləri də ikitərəfli münasibətlərdə mühüm hadisədir. Düşünürəm və əminəm ki, o, tacik xalqının zəngin mədəniyyəti ilə tanış olmaq imkanı əldə edən Azərbaycan tamaşaçılarına sevinc bəxş edir.

Bu gün biz sənaye kooperasiyası ilə bağlı məsələləri ətraflı müzakirə etdik və əminəm ki, haqqında danışdığımız məsələlər, hökumət üzvlərinə verilən tapşırıqlar ən qısa zamanda icra olunacaq. Nəqliyyat sektoru da diqqət mərkəzimizdə olub. Biz Orta Dəhlizi və onun bir hissəsi olan Transxəzər Nəqliyyat Dəhlizini Tacikistandan yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə logistika əlaqələrinə dair məsələləri ətraflı nəzərdən keçirdik. Mən həmkarıma məlumat verdim ki, Azərbaycan öz ərazisində bütün iri nəqliyyat və logistika layihələrini praktiki olaraq başa çatdırıb və bu gün müxtəlif istiqamətlərdə - Şərqdən Qərbə və əks istiqamətdə, Şimaldan Cənuba və əks istiqamətdə böyük həcmdə yükləri qəbul etməyə hazırdır.

Bu gün, həmçinin geosiyasi dəyişikliklər, dünyadakı vəziyyət, regionlarımızdakı şərait ilə bağlı məsələləri müzakirə etdik. Biz təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və bu sahədə əməkdaşlığın inkişafı, təhsil, mədəniyyət və kənd təsərrüfatı ilə bağlı məsələləri ətraflı nəzərdən keçirdik. Başqa sözlə, hətta ölkələrimizin nümayəndə heyətlərinin tərkibi də geniş gündəmdən xəbər verir. Amma, əlbəttə, əsas olan münasibətlərimizdəki səmimiyyət, Tacikistanla Azərbaycan arasındakı münasibətlərin dostluq, qardaşlıq xarakteri, təbii ki, dövlət başçılarının şəxsi təmaslarıdır. Keçən il mən Tacikistanda iki dəfə - həm dövlət səfərində oldum, həm də Emoməli Şaripoviç məni Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə fəxri qonaq qismində dəvət etdi. Həmçinin ötən il biz BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının - SPECA-nın Sammitini keçirdik və Emoməli Şaripoviç ölkəmizə səfər etdi. Yəni, bizim Tacikistan və Azərbaycanda müntəzəm təmaslarımız, - hələ beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşləri demirəm, - əlbəttə ki, qarşılıqlı fəaliyyətimizin ən mühüm amilidir, münasibətlərin konkret olaraq zənginləşməsi üçün bütün sahələrə güclü təkan verir.

Hörmətli Emoməli Şaripoviç, bir daha Sizi səmimiyyətlə salamlayıram. Dəvətimi qəbul etdiyinizə və dövlət səfərinə gəldiyinizə görə təşəkkür edirəm. Qardaş Tacikistanın xalqına Sizin rəhbərliyinizlə yeni qələbələr arzulayıram. Təxminən 20 il ərzində Tacikistana səfər edən bir şəxs kimi hər dəfə irimiqyaslı dəyişikliklərin, iqtisadi, sosial inkişafın, şəhərsalma sahəsində uğurların şahidi oluram. Hər dəfə Düşənbədə olarkən şəhərin necə gözəlləşdiyini, onun sakinlər və qonaqlar üçün rahat olduğunu görürəm. Buna görə də bir daha bütün nailiyyətlər münasibətilə təbrik edirəm. Sizə və qardaş tacik xalqına yeni uğurlar arzulayıram.



* * *

Sonra Tacikistan Prezidenti bəyanatla çıxış edib.

**Prezident Emoməli Rəhmonun bəyanatı**

- Sağ olun, hörmətli İlham Heydər oğlu.

Hörmətli media nümayəndələri.

Xanımlar və cənablar.

İlk növbədə, ənənəvi qonaqpərvərliyə, yüksək diqqətə və səmimi qəbula görə Azərbaycan Respublikasının Prezidenti, əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına ürəkdən təşəkkür etmək istəyirəm.



Bu gün regionun ən böyük sənaye, iqtisadi və elmi-texniki mərkəzlərindən biri olan qədim tarixə malik gözəl Bakı şəhərini növbəti dəfə ziyarət etdiyimə görə çox şadam. Azərbaycan paytaxtının təkrarolunmaz siması ölkənin dinamik sosial-iqtisadi inkişafının və Azərbaycan xalqının rifahının davamlı olaraq yüksəlməsinin təcəssümüdür.

Bugünkü görüşlərimiz Tacikistan-Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərinə xas konstruktiv və etimad mühitində keçdi. Danışıqlar zamanı iki ölkə arasındakı münasibətlərin bütün kompleksini ətraflı müzakirə etdik. Bu münasibətlərin uzunmüddətli inkişafının təməlini əhəmiyyətli dərəcədə gücləndirən bir sıra vacib razılaşmalar əldə etdik.

Hörmətli İlham Heydər oğlu qeyd etdiyi kimi, bu gün biz dövlətlərarası münasibətlərimizin səviyyəsini strateji tərəfdaşlığa yüksəldən tarixi qərar qəbul etmişik. Bu qərar şübhəsiz ki, əməkdaşlığımızın tarixində yeni səhifə açır. Öz növbəmdə müntəzəm siyasi dialoqun bütün səviyyələrdə aparılmasının vacibliyini vurğulamaq istərdim.

Tacikistanda Azərbaycan Prezidenti İlham Əliyevin ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafına şəxsi töhfəsi yüksək qiymətləndirilir. Danışıqlar zamanı Azərbaycan Prezidentinin Tacikistana ötənilki dövlət səfəri zamanı əldə edilmiş razılaşmaların əməli surətdə həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirildi. İqtisadi-ticari sahədə əməkdaşlığımızın inkişafı diqqət mərkəzində saxlanıldı. Ölkələrimizin hökumətlərinə 2025-ci ilədək hökumətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə Tədbirlər Planının tam icrasına ciddi nəzarət etmək tapşırıldı. İqtisadi-ticari əməkdaşlıq məsələləri üzrə Birgə hökumətlərarası komissiyanın daha səmərəli işləməsi məqsədilə biz onu həmsədrlər səviyyəsindən Baş nazirlərin müavinləri səviyyəsinə qaldırmağı təklif etdik.

(Ardı 3-cü səhifədə)

# Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

**(Əvvəli 2-ci səhifədə)**



Həmçinin parlamentlərarası dialoqun inkişafına dair fikir mübadiləsi aparıldı.

Danışıqlar zamanı bir daha Azərbaycan şirkətlərinin və maliyyə qurumlarının Tacikistanda layihə və proqramların həyata keçirilməsində iştirak imkanlarını prioritet qaydada nəzərdən keçirməyə hazır olduğumuzu bildirdik. Bakıda səfərimiz çərçivəsində keçirilən biznes-forum tərəflərin iqtisadi-ticari əlaqələrini inkişaf etdirmək üçün geniş imkanlara malik olduqlarını göstərdi. Ümidvaram ki, onun nəticələri bu gün imzalanmış ikitərəfli sənədlərlə yanaşı, bu istiqamətdəki əməkdaşlığımıza da təkan verəcək. Qeyd etmək lazımdır ki, forum çərçivəsində imzalanmış kommersiya müqavilələrinin və sazişlərin ümumi məbləği bütövlükdə 700 milyon ABŞ dollarından çox olub. Müvafiq nazirliklərə və idarələrə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə qarşılıqlı tədarük olunan malların nomenklaturasının genişləndirilməsinə yeni yanaşmaların hazırlanması üçün konkret tapşırıqlar verildi.

Danışıqlar zamanı biz aqrar sahəyə də xüsusi diqqət yetirdik. Biz turizm sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsinin imzalanmasını alqışladıq. Bununla bağlı müvafiq qurumlara paytaxtlarımız arasında birbaşa aviareyslərin bərpası üçün tədbirlərin görülməsi tapşırıldı.

Nəqliyyat və kommunikasiya sahələrinə xüsusi diqqət yetirildi. Tacikistanın dövlət və kommersiya strukturlarının Azərbaycan ərazisindən yük daşımalarının həcminin artması tendensiyasını məmnunluqla qeyd etdik. Tacikistanın yük daşıyıcılarına məqbul tranzit tarifləri təqdim etdiyinə görə Azərbaycan tərəfinə minnətdarlığımızı bildirdik.

Danışıqlarımızda mədəni-humanitar əməkdaşlıq məsələsi də mühüm yer tutdu. Bu baxımdan, təhsil sahəsində əməkdaşlığın inkişafına diqqət yetirildi. İki ölkənin universitetlərində təhsil almaq üçün qarşılıqlı olaraq ayrılan kvotaların sayını artırmaq barədə razılığa gəldik. Səfər çərçivəsində keçirilən mədəni tədbirlər ölkələrimizin vətəndaşlarının bir-birimizin mədəni nailiyyətləri ilə tanış olmaq marağını və istəyini bir daha sübuta yetirdi. Biz dostlarımıza təklif etdik ki, gələn il Tacikistanda Azərbaycan Mədəniyyət Günlərini keçirək və bu tədbir çərçivəsində Tacikistan və Azərbaycan xalqları arasında Dostluq festivalı təşkil edək.

Danışıqlar zamanı təhlükəsizliklə bağlı risklər və təhdidlər müzakirə edildi. Öz növbəmdə onu qeyd etmək istərdim ki, beynəlxalq aləmdə mövcud vəziyyət mürəkkəb və gərgin olaraq qalmaqdadır. Fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Tacikistan bütün ziddiyyətlərin və münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır. Biz Azərbaycanla təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən və məzmunundan məmnunluğumuzu bildiririk. Bu baxımdan, terrorizmə və ekstremizmə, radikalizmin təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən kibercinayətkarlığa və narkotik qaçaqmalçılığına qarşı mübarizəyə mühüm yer ayırırıq. Bu xətt üzrə xüsusi xidmət orqanlarının və ixtisaslaşdırılmış digər idarələrin fəaliyyətinin əlaqələndirilməsinin gücləndirilməsini zəruri hesab edirik.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində ölkələrimizin təşəbbüslərinin qarşılıqlı şəkildə dəstəklənməsi təcrübəsinin davam etdirilməsinin tərəfdarı olduğumuzu bildirdik. Azərbaycanın bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti sessiyasını (COP29) keçirməsi ilə bağlı qərarını alqışlayırıq.

Vurğulamaq istərdim ki, biz Tacikistan-Azərbaycan münasibətlərinin inkişaf perspektivlərinə nikbin baxırıq.

Sonda hörmətli İlham Heydər oğlu, səmimi qəbula və qardaşcasına qonaqpərvərliyə görə Sizə və qardaş Azərbaycan xalqına bir daha səmimi-qəlbdən təşəkkürümü bildirmək istəyirəm.

Onu da demək istərdim ki, mən konstruktiv dialoqumuzu davam etdirmək məqsədilə əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevi böyük məmnuniyyətlə Tacikistana səfərə dəvət etmişəm.

Çox sağ olun. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycan Respublikasına dövlət səfəri mayın 23-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

## Prezident İlham Əliyev: Hər bir ölkə maliyyə imkanlarından və gündəmindən asılı olaraq üzərinə düşən vəzifəni yerinə yetirməlidir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına müsahibə verib.*



Həmin müsahibəni təqdim edirik.

**Müxbir**: Prezident Əliyev, Sizinlə söhbət etmək həmişə olduğu kimi çox xoşdur. Biz Berlində, Petersberq İqlim Dialoqu tədbirindəyik. Bu, həqiqətən də COP29-a aparan yolun başlanğıcıdır. Yəqin ki, komandanız çox həyəcanlıdır. Builki COP-dan nə gözləyə bilərik, hansı məsələlər icra olunacaq və sadəcə, müzakirə olunmayacaq?

Prezident **İlham Əliyev**: Biz bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Bizim Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, Hərəkata dörd il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə biz həqiqətən də böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv olan ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannaməni imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq? Çünki siz fərqli ideyaları, fərqli fikirləri bilirsiniz.

**Müxbir**: Qazıntı yanacağı ideyası ötən il BƏƏ-də keçirilən COP28-də üstünlük təşkil edirdi. Bilmək istərdim ki, Sizin fikrinizcə, COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi?

Prezident **İlham Əliyev**: Biz məhz buna nail olmağa çalışırıq. Konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir.

**Müxbir**: COP29-un davamlı mirası olaraq nəyi görmək istərdiniz?

Prezident **İlham Əliyev**: Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq. Eyni zamanda, bildiyiniz kimi COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik.

**Müxbir**: Cənab Prezident, Sizinlə söhbət etmək xoş idi. Bu gün bizə vaxt ayırdığınıza görə çox sağ olun.

Prezident **İlham Əliyev**: Çox sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib





*Mayın 21-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdən əvvəl Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarları, eləcə də Şəhidlər xiyabanı və Türk Şəhidliyi ziyarət olunub, əklil və gül dəstələri qoyularaq, xatirələrinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə nümayəndə heyətini qəbul edib. Qonaqları salamlayan müdafiə naziri onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan və Türkiyə arasında əlaqələrin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatların müsbət nəticələrindən danışıb.



Ordu generalı S.Bayraktaroğlu isə öz növbəsində göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib.

Hər iki qardaş ölkənin hərbi əməkdaşlığının inkişafı istiqamətində bu cür görüşlərin mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

Görüşdə, həmçinin hərbi, hərbi-texniki sahədə əməkdaşlığın inkişaf perspektivləri və regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Sonra Türkiyə nümayəndə heyəti müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüşüb.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşlər zamanı qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının hazırkı vəziyyətindən məmnunluq ifadə edilib.

Türkiyəli qonaqlar rəsmi səfər çərçivəsində Quru Qoşunların qərargahını ziyarət ediblər. Qərargahda təntənəli qarşılanma mərasimi keçirilib. Fəxri qarovul dəstəsinin önündən keçiddən sonra Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Respublikasının İstiqlal Marşı səsləndirilib, protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Hikmət Mirzəyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Görüşdə hər iki qardaş ölkənin hərbi qulluqçularının peşəkarlığının artırılması, eyni zamanda, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə hərbi təlimlərin keçirilməsinin vacibliyi vurğulanıb və bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.





# Azərbaycan və Serbiya Müdafiə nazirliklərinin nümayəndə heyəti arasında işçi görüşü keçirildi

Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində iki ölkənin mühəndis təminatı üzrə hərbi ekspertlərinin humanitar mina təmizləmə mövzusunda işçi görüşü keçirildi.

Görüşdə Mühəndis Qoşunları Baş İdarəsinin rəisi general-mayor Anar Kərimov qonaqlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbədən sonra azad edilmiş ərazilərdə minaların təmizlənməsi üzrə görülən işlər barədə ətraflı məlumat verdi.



İdarə rəisi qeyd etdi ki, əhalinin qısa müddət ərzində doğma evlərinə geri qayıtmalarının təmin edilməsi məqsədilə əsas səylər işğaldan azad edilmiş ərazilərdə minalar və partlayıcılarla çirkləndirilmiş əkin sahələrinin, yaşayış məntəqələrinin, yolların və infrastruktur obyektlərinin təmizlənməsinə yönəldilib. Eyni zamanda, çətin relyefə malik ərazilərdə xidmətin yüksək səviyyədə təşkili üçün mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun olaraq, digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə davam etdirilir.



Görüşdə, həmçinin minalar, əldəqayırma partlayıcı qurğular və partlamamış döyüş sursatlarının zərərsizləşdirilməsi üçün hər iki ölkənin silahlanmasında olan texnika, eləcə də mühəndis bölmələrinin təchizatı və digər zəruri mövzular barəsində ətraflı fikir mübadiləsi aparıldı.

Görüşün sonunda qarşılıqlı xatirə hədiyyələri təqdim edildi.

**Baş leytenant
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"**

# İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlər və psixoloqlar ilə toplantı keçirilib

*2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində qoşun növü, birlik, birləşmə, hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş və mənəvi-psixoloji təminat (İİ və MPT) üzrə şöbə və bölmə (aidiyyəti kafedra və silsilə) rəisləri, hərbi hissələrin qərargah rəislərinin İİ və MPT üzrə köməkçiləri və psixoloqları ilə toplantı keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Şəxsi Heyət Baş İdarəsinin rəisi general-mayor Müşfiq Məmmədov Ali Baş Komandanımızın Azərbaycan Ordusunun qarşısında qoyduğu mühüm vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində ordumuzun döyüşə hazırlıq səviyyəsinin, döyüş qabiliyyətinin, şəxsi heyətin vətənpərvərlik ruhunun artmasından danışıb. Həmçinin toplantıda ölkəmizdə həyata keçirilən irimiqyaslı islahatların ordumuzun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə səbəb olduğu vurğulanıb, eləcə də 2024-cü ildə müvafiq sahədə görüləcək işlər barədə Müdafiə nazirinin tapşırıqları iştirakçıların diqqətinə çatdırılıb.

Müdafiə Nazirliyinin müxtəlif idarə və hərbi hissələrinin zabitləri çıxış edərək şəxsi heyətin mənəvi-psixoloji səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlər və ordunun döyüş qabiliyyətinə təsir edən digər mövzular ətrafında fikir və mülahizələrini bölüşüblər.

Plana uyğun olaraq toplantıda informasiya təhlükəsizliyi, regionda və dünyada cərəyan edən ictimai-siyasi hadisələr və digər mövzular əsasında çıxışlar dinlənilib.

# Gürcüstanın Hərbi Polis Departamentinin nümayəndə heyəti ölkəmizə səfər etdi







*Azərbaycan və Gürcüstan Müdafiə nazirlikləri arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən Gürcüstan Respublikası Müdafiə Nazirliyinin Hərbi Polis Departamentinin rəisi polkovnik Şalva Şenqelianın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi.*



Səfər çərçivəsində nümayəndə heyəti Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində oldu.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin idarənin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla anıldı.

Hərbi Polis İdarəsində keçirilən görüşdə qonaqları salamlayan Hərbi Polis İdarəsinin rəisi polkovnik-leytenant Elgün Əliyev onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirdi.

Görüşdə ikitərəfli hərbi əməkdaşlığın hazırki vəziyyətindən məmnunluq ifadə olundu, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığı qeyd edildi. Qarşılıqlı təcrübə mübadiləsi məqsədilə bu cür görüşlərin əhəmiyyəti xüsusilə vurğulandı.

Sonra qonaqlara Hərbi Polis İdarəsinin fəaliyyəti haqqında brifinq təqdim olundu.

Görüşlərdə həmçinin ideoloji işin təşkili, orduda mənəvi-psixoloji vəziyyətin yüksəldilməsi üzrə qarşılıqlı fikir mübadiləsi aparıldı, müxtəlif mövzulara dair müzakirələr edildi. Göstərilən səmimi qonaqpərvərliyə görə gürcüstanlı nümayəndə heyəti təşəkkürünü bildirdi.

Səfərin növbəti günündə qonaqlar Hərbi Polis İdarəsinin şəxsi heyəti ilə keçirilən döyüş hazırlığı məşqlərini izlədilər.

Əvvəlcə hərbi qulluqçulara Müdafiə Nazirliyi rəhbərliyinin tədris dövrü ərzində, xüsusilə azad edilmiş ərazilərdə, hərbi polis bölmələrinin komendant xidməti fəaliyyətinin daha keyfiyyətli təşkili və sayıqlığın artırılması, həmçinin müvafiq dövlət qurumları ilə qarşılıqlı fəaliyyətin təşkilinə dair tələb və göstərişləri çatdırıldı.

Döyüş hazırlığı məşqlərinə cəlb edilən hərbi polis bölmələri nəzarət-buraxılış məntəqələrində patrul xidmətinin təşkili, hərbi obyektlərin mühafizəsi, hərbi nəqliyyat vasitələrinin hərəkətinin istiqamətləndirilməsi, kolonların təhlükəsiz hərəkətinin təmin edilməsi barədə təlimatlandırıldı.



Sonra həyəcan siqnalı ilə qaldırılan şəxsi heyət kolonla təyin edilmiş məntəqələrə doğru hərəkət etdi.

Təlimin planına əsasən, terrorçuların zərərsizləşdirilməsi və əsir götürülmüş mülki vətəndaşların azad edilməsi, yaralılara ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi üzrə tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirildi.

Təlim zamanı əsas diqqət döyüş əməliyyatları gedən ərazilərdə mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi, əsir və girovların azad edilməsi, həmçinin hərbi əsirlərlə davranış zamanı fəaliyyətlərin Cenevrə Konvensiyalarının tələblərinə uyğun təkmilləşdirilməsinə yönəldilmişdi.

Təlimə yekun olaraq döyüş hazırlığı məşqlərində fərqlənən bir qrup hərbi qulluqçuya mükafat təqdim olundu.





**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# “İstiqlal Bəyannaməsi”, Müstəqillik haqqında Konstitusiya Aktı və üçrəngli bayrağın mənəvi işığı

*Xalqın ruhu mübarizələrdə formalaşır. Mübarizə var olmaq, tarixdə qalmaq, yaşamaq niyyətidi - xalqı xalq kimi mübarizələr yaşadır, tarixləşdirir. Tarixin qəlibi Azıxdan, Gəmiqayadan, Qobustandan, ... boy göstərən, min illərdi kimliyinin qılıncı olan bu ruha dar gəldi. "Varıq, var olacağıq!" qətiyyəti xalqın ruhunun qüdrəti kimi dünyanın münasibətlər buzunu əritdi, xalqın dağlarını dikəltdi, bulaqlarının suyunu durulaşdırdı, yellərini coşdurdu, dəryalarını daşdırdı və onun siyasi qüdrətinə döndü. Bu uca ruh, uluca ruh tarixin müxtəlif dönəmlərində müxtəlif siyasi çalxantılarla da üzləşdi, mübarizələrdən də keçdi, sıyrılı qılıncına qılınc çəkən yağılığın, baş qaldıran yağının boyunu da gödəltdi...*



Dövlətlər yarandı...

Tarixdə zaman yüz illərlə ölçülür - neçə yüz illər keçdi, Səfəvilər dövləti yarandı, xanlıqlar yarandı. Yadların siyasi niyyətini ifadə edən Gülüstan müqaviləsi Azərbaycanı ikiyə bölsə də, xalqın ruhunun üstündən yel əsdirə bilmədi. Bir əli zaman anlamında dünənlərdə, bir əli zaman anlamında sabahlarda olan bu ruhun hər səhəri mübarizə üzünə açılırdı, bu mübarizə xalqın iradəsi idi.

Bu fikirlərin zəmanəti ilə "N" hərbi hissəsində əsgərlərlə söhbətləşəndə Dövlət Müstəqilliyi Günü haqqında danışmağı da qərara almışdım. Bu söhbətlə, müəyyən mənada, bu tarixi gün haqqında əsgərlərin bilgilərini genişləndirməyi, yeniləməyi, onların vətənpərvərlik duyğularını bir söhbətin imkanları qədərincə yüksəltməyi özümə mənəvi borc bilirdim. 1918-ci il mayın 28-də "İstiqlal Bəyannaməsi" ilə xalqımız "var imzamız imzalar içində" dedi, bu bəyannamə müstəqil Azərbaycanın dünyaya ilk rəsmi müraciəti oldu...

Azərbaycan Demokratik Respublikası şəraitə görə Tiflisdə elan olunmuşdu. Əvvəl Tiflisdə fəaliyyət göstərən hökumət, sonra Gəncəyə köçürüldü...

"İstiqlal Bəyannaməsi"ndə müstəqil Azərbaycan dövlətinin yarandığı bildirilmişdi, onun hakimiyyətinin əhatələdiyi ərazinin hüdudları müəyyənləşdirilmişdi, bu hüquqi və siyasi sənəddə dövlətin əsas prinsipləri göstərilmişdi, demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa məxsusluğu, vətəndaşların mülki və siyasi hüquqlarının təminatı, xalqların və insanların milli, dini, sinfi və cinsi mənsubiyyətindən asılı olmayaraq hamının azad yaşaması üçün şərait yaradıldığı, hakimiyyətin bölünməsi prinsiplərinin əsası olduğu, Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaradacağı bildirilirdi. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqramla məlumat verildi...

Azərbaycan Demokratik Respublikasında bütün dövlət təsisatları yaradılmışdı. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edilmişdi, ölkənin sərhədləri müəyyənləşdirilmişdi, dövlətin bayrağı, dövlətin himni, dövlətin gerbi yaradılmışdı, Azərbaycan dili dövlət dili elan edilmişdi, ordu yaradılmağa başlamışdı, ordu quruculuğu istiqamətində əhəmiyyətli tədbirlər görülməyə başlanmışdı, dövlət maarifin, təhsilin, mədəniyyətin inkişafına ciddi diqqət yetirirdi, Azərbaycanın ilk universiteti təsis edilmişdi. Bu, dövlətin dünyəvi dövlət olmasını gerçəkləşdirəcəkdi.

Azərbaycan bədxah dövlətlərin əhatəsində idi. Tarixi sənədlərdə qeyd olunur ki, siyasi baxışlara, siyasi təzyiqlərə, siyasi təhdidlərə görə 1918-ci ildə Azərbaycan torpaqlarının bir hissəsində Ermənistan Demokratik Respublikası yaradılmasına razılıq verdi. İrəvanın yaradılan Ermənistan Demokratik Respublikasına verilməsinə etiraz edə bilmədi. Ərazisi azalan Azərbaycanın gizli siyasi gərginliyi artdı. Azərbaycanın XIX əsrin sonlarında, XX əsrdə yaşadığı siyasi acıların başlanğıcı "Gülüstan" müqaviləsi ilə qoyulmuşdu (ermənilər Azərbaycan ərazisinə köçürülmüşdülər), Azərbaycanın ərazisində erməni dövləti yaradılmaqla davam etdirilmişdi...

"İstiqlal Bəyannaməsi" dünya dövlətlərinə xalqın mübarizələrinin nəticəsi kimi Azərbaycan dövlətçiliyinin bərpa olunduğunu bəyan edirdi.

Əsgərlərə xatırladıram ki, 1918-ci il mayın 28-də Tbilisidə qəbul olunan "İstiqlal Bəyannaməsi" müstəqil dövlət elan edilməsi haqqında Azərbaycan Milli Şurasının qərarı idi. Bəyannaməni Əhməd bəy Ağayev, Mustafa Mahmudov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyov, Nəriman bəy Nərimanov və başqaları imzalamışdılar. Dövlət idarəçiliyi üçün xalq cümhuriyyəti forması müəyyənləşdirilmişdi.

Azərbaycan Demokratik Respublikası milli-xəlqi mübarizələrlə yaradılmışdı, tarixin inadını xalqın dönməz ruhunun qüdrəti ilə sındırmışdı, "Gülüstan" müqaviləsini tarixin urvatsızlıq qutusuna atmışdı.

Dövlətin ən çox diqqət yetirdiyi təhsil, mədəniyyət, incəsənət milli-mənəvi dəyərlərin yeni dövlətçilik sistemi əsasında formalaşacağının siyasi zəmanəti idi.

Tarixi sənədlər təsdiqləyir ki, yaranan dövlət təkcə qonşu dövlətlərlə deyil, digər dövlətlərlə də siyasi, iqtisadi, mədəni əlaqələr qururdu. Dünyanın siyasi müstəvisində boy göstərən gənc Azərbaycan dövləti - Azərbaycan Demokratik Respublikası dünya dövlətləri ilə diplomatik münasibətlər yaratdı, kimisi ilə səfirlik, kimisi ilə nümayəndəlik səviyyəsində yaradılan bu münasibətlər ikitərəfli siyasi əlaqələrin rəsmiləşdirilməsi idi. Müxtəlif dövlətlərlə ikitərəfli, çoxtərəfli müqavilələr bağlanmışdı. AXC müstəqil məhkəmə sisteminin yaradılması üçün mühüm tədbirlər həyata keçirmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdə böyük əhəmiyyətini, XX əsrin sonunda mənəvi və siyasi rolunu dövlətçiliyin şərtləri əsasında dəyərləndirən böyük tarixi şəxsiyyət Heydər Əliyev dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuq, buna görə Xalq Cümhuriyyətinə borcluyuq. XX əsrin əvvəlləri ilə sonu arasında mənəvi-ruhi, xəlqi-milli bağlılıq olduğunu bildirən böyük tarixi şəxsiyyət demişdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Tarix deyir ki, Azərbaycan Demokratik Cümhuriyyəti həmişə xatırlanıb, qəlbitəmizlər bu süqutu təəssüflənməklə, digərləri qərəzliklə, gözügötürməzliklə xatırlayıblar. Tarix onu da deyir ki, Şərqin ilk demokratik cümhuriyyətini süquta yetirən imperiyanın başçısı Məmməd Əmin Rəsulzadədən soruşub ki, "Bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz?". Cavab olaraq qürurla, bir qədər də təəssüflə səslənən kəlmələr sonralar Azərbaycanın timsalında milli-azadlıq hərəkatının nə olduğunu aydınlaşdıran dövlətçilik tezisi kimi tarixləşib: "Çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da olsa, milli istiqlal dadızdırdıq. Yüz illik əsarət dərsi ilə iki illik hürriyyət qovğası bizi özümüzə tanıtdı. Bir kərə yüksələn bayraq bir daha enməz".

İmperiyanın ciddi siyasi qadağaları xalqın mübarizə əzmini qıra bilməmişdi. Milli-azadlıq hərəkatı Azərbaycan dövlətçiliyinin ideoloji carçısı idi... 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli "İstiqlal Bəyannaməsi"nə istinad edilmişdi, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu bildirilirdi. Bu hüquqi sənəddə qeyd edilib ki, "Bu Konstitusiya Aktı Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün əsasdır". Yeni Konstitusiya bəşəri, tolerant dövlətin Konstitusiyası kimi hazırlandı...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik, 100 illik yubileyləri ilə bağlı imzaladığı Sərəncamlar dövlətçilik tariximizə ehtiramın təzahürü kimi tarixləşdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində demişdi ki, bu il - 2018-ci il Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib: "Biz demokratik respublikanın 100 illik yubileyini il ərzində qeyd edirik və bu, cari ilin əsas hadisəsidir. Bilirsinizmi, tarixə nəzər salanda düşünürsən, təsadüfi deyil ki, müsəlman aləmində ilk demokratik respublika məhz azərbaycanlılar tərəfindən yaradılıb. Yəni, bu hadisə xalqımızın keçmişindən, onun azadlıqsevər, məğrur və mütərəqqi xarakterindən qaynaqlanır. Azərbaycan ədəbiyyatının klassiklərini oxuyanda görürsən ki, onların əsərlərində məhz bu gün aktual olan məsələlərlə bağlı fəlsəfi mövzular kifayət qədərdir. Buna görə də 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bizim üçün tarixi hadisədir”. Bu kəlamlar İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərin də ideoloji başlanğıcının Azərbaycan Demokratik Cümhuriyyəti olduğunun tarixi ifadəsidir.

"Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qürurla dediyi bu fikirlər Azərbaycan əsgərinin hərbi xidmətinin mənəvi davamıdır. Bu qürur qurucusu Heydər Əliyev olan müasir Azərbaycanın varisi olduğu Azərbaycan Demokratik Cümhuriyyəti ilə bağlı qüruru da yaşadır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## “Heç bir qüvvə Azərbaycanda xalq-ordu birliyinə xələl gətirə bilməz”

Azərbaycanda xalq-ordu birliyi əzəli və əbədidir və heç bir qüvvə bu birliyi poza, bu birliyə xələl gətirə bilməz.

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, istefada olan polkovnik Cəlil Xəlilov bildirib. Polkovnik qeyd edib ki, bütün çətin, həlledici anlarda ordu xalqın, xalq isə ordunun yanında olub, bir-birilərinə dəstək verib: "Azərbaycan tarixinə nəzər salsaq görərik ki, ölkəmizdə hər zaman ordu ilə xalq arasında çox mühüm birlik, həmrəylik mövcud olub. Bu həmrəylik taleyüklü məsələlərdə özünü bütün əzəməti ilə büruzə verib. Müstəqillik tariximizin bütün mərhələlərində - istər Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində biz bu birliyə şahid olmuşuq".

istefada olan polkovnik qeyd edib ki, 44 günlük Vətən müharibəsində xalqın ordu ilə sərgilədiyi həmrəylik bütün dünyada böyük marağa səbəb oldu, heyrətlə qarşılandı: "Nəinki gənc nəslin nümayəndələri, yeniyetmələrimiz, ahıllarımız belə orduya dəstək vermək, həmin vaxt işğal altındakı torpaqlarımızın azadlığına töhfə vermək üçün orduya yazılmağa çalışır, bunun üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə kütləvi müraciətlər ünvanlayırdı. İnsanlar maddi vəsaitlərini, əmlaklarını orduya bağışlayır, ön və arxadakı hərbi birliklərə fasiləsiz yardımlar göndərirdi. Məhz bütün bu dəstəyin sayəsində ordu müharibənin hər bir anında xalqı öz yanında hiss etdi, xalqın sevgisindən qüvvət aldı".

Cəlil Xəlilov bildirib ki, heç bir qüvvə xalq-ordu arasındakı bu birliyi poza bilməyəcək: "Bu gün bəzi antimilli qüvvələr, təxribatçı ünsürlər ölkəmizdə xalq-ordu birliyini pozmağa, bu birliyə kölgə salmağa çalışır. Lakin hər kəs bilməlidir ki, Azərbaycanda xalq-ordu birliyi möhkəm və əbədidir. Heç kim bu birliyi poza, buna xələl gətirə bilməz. İstər Ulu Öndər Heydər Əliyev, istərsə də Prezident İlham Əliyev tərəfindən xalq-ordu birliyinin güclənməsi, bu birliyin daha da möhkəmlənməsi istiqamətində çox mühüm işlər görülüb. Məhz bu siyasətin nəticəsidir ki, bu gün xalq-ordu birliyi "Dəmir yumruq" qədər güclü və sarsılmazdır. Hər bir Azərbaycan vətəndaşı bu birliyin keşiyində durmalı, onu qoruyub saxlamaq, daha da möhkəmləndirmək üçün əlindən gələni əsirgəməməlidir.

Biz də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq xalq-ordu birliyini daim diqqət mərkəzində saxlamaqda, gənclər, yeniyetmələr arasında bu istiqamətdə mühüm təbliğati işlər həyata keçiririk. İnanıram ki, biz yaxın gələcəkdə dövlət və cəmiyyət olaraq xalq-ordu birliyinin daha da güclənməsinə, mahiyyət etibarı ilə yeni mərhələyə yüksəlməsinə nail olacağıq".

Milli Qəhrəmanlarımız

# Milli Qəhrəmanın xatirəsi unudulmur





*Qədim tarixi, mədəniyyəti, poetik dünyası ilə seçilən Qazax rayonu qəhrəmanları, mərd igidləri ilə də tanınıb. Ermənistanın elan etmədən başladığı müharibədə qazaxlılar da torpaqlarımızın müdafiəsinə qalxıblar. Mərifət Əhməd oğlu Nəsibov da el-obaya arxa-dayaq olmağı bacaran igidlərdən olub.*

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi və Tovuz-Qazax Regional Təhsil İdarəsi Qazax sektorunun birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Mərifət Nəsibov adına Qazax rayonu Aşağı Əskipara kənd orta məktəbində anım mərasimi keçirildi. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, Milli Qəhrəmanın döyüş yoldaşları, Vətən müharibəsi iştirakçıları, məktəbin müəllim və şagird kollektivi iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi böyük ehtiramla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərkəzin əməkdaşı Şəhla Abdullayeva Milli Qəhrəmanın həyat və döyüş yolu haqqında ətraflı məlumat verdi. Bildirdi ki, Mərifət Nəsibov torpaqlarımızın qorunmasında şəxsi igidlik və vətənpərvərlik nümayiş etdirib. O, 1972-ci il mayın 5-də Məzəm kəndində anadan olub. 1989-cu ildə Aşağı Əskipara kənd orta məktəbini bitirib. Vətənsevər bir şagird kimi tanınıb. 1990-cı ildə sovet ordusu sıralarına çağırılıb. Həmin vaxtlar ölkəmizə qarşı düşmən qüvvələr tərəfindən təhdidlər başlamış, ermənilər Qarabağın Ermənistana birləşdirilməsi iddiasına düşmüşdülər. Sərhəd bölgələrində kənd və qəsəbələrimizə hücumlar təşkil edir, dinc əhalini qətlə yetirirdilər. Sovet ordusunda bir il xidmət edən Mərifət Nəsibov Azərbaycana qayıtdı və könüllülərə qoşuldu. O da döyüşlərdə yaxından iştirak etdi. Quşçu Ayrım, Aşağı Əskipara, Məzəm kəndlərinin müdafiəsində qətiyyət göstərənlərin sırasında oldu. Növbəti döyüşlərin birində düşmən gülləsinə tuş gəldi, şəhid oldu. Düşmənlərə qarşı mübarizədə göstərdiyi şəxsi igidlik və rəşadətə görə ölümündən sonra 7 iyul 1992-ci ildə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü. Xatirəsini yaşatmaq üçün Ulu Öndərin adını daşıyan parkda "Xatirə Bulağı" inşa olundu. Təhsil aldığı Aşağı Əskipara kənd məktəbinə onun adı verildi.



Məktəbin direktoru İslam Carçıyev bildirdi ki, Vətənimizin dövlətçilik tarixində görkəmli simalar, tarixi şəxsiyyətlər həmişə olub. XX əsr tariximizin böyük tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. İstər sovet hakimiyyəti illərində, istərsə də ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndərin Vətən və xalq qarşısında tarixi xidmətləri ölkəmizi dünyada hüquqi, demokratik, bəşəri dəyərlərə söykənən ölkə kimi tanıtdı. Azərbaycan dövlətinin müstəqilliyini qorudu, onu dünya miqyaslı ölkəyə çevirdi. Ölkəmiz iqtisadi, siyasi, hərbi sahədə böyük uğurlara nail oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərkərdəliyi ilə xalqımızın və ordumuzun qüdrəti ilə torpaqlarımız işğaldan azad olundu. Yaxın keçmişdə dövlət başçımızın həyata keçirdiyi dönməz xarici siyasəti nəticəsində rayonumuzun işğal altında olan 4 kəndi də işğaldan azad edildi. İnanırıq ki, tezliklə qalan kəndlərimiz də azad olunacaq.




Tovuz-Qazax Regional Təhsil İdarəsinin əməkdaşı Orxan Əliyev ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasında misilsiz xidməti olan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən daxili və xarici siyasətin diplomatik fəaliyyətin əsaslarının yaradıcısının da Ulu Öndər olduğunu diqqətə çatdıraraq bildirdi ki, Vətənimizin tarixinə qızıl hərflərlə yazılan Zəfər günü kimi şanlı tariximiz var. Bu tarixi günə xalqımızı qovuşduran Müzəffər Ali Baş Komandana, hərbi qulluqçularımıza dərin hörmət və ehtiramımızı bildirməklə, şəhidlərimizin, Milli Qəhrəmanların xatirəsini həmişə uca tutacağıq. Belə qəhrəmanlardan biri də Mərifət Əhməd oğlu Nəsibovdur. O, Azərbaycan xalqının mərd, mübariz övladlarındandır. Biz onların xatirəsini yaşatmaqla vətəndaşlıq borcumuza həmişə sadiq qalacağıq.

Milli Qəhrəmanın ailə üzvləri adından çıxış edən qardaşı Hümbət Nəsibov Ulu Öndərin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi geniş miqyaslı quruculuq işlərindən, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzundan, şəhid ailələrinə göstərilən böyük diqqət və qayğıdan danışdı, dövlət rəhbərliyinə minnətdarlığını bildirdi.

Mərkəzin əməkdaşları "Əsgərə məktub" layihəsi haqqında da tədbir iştirakçılarına məlumat verdilər. İctimaiyyət nümayəndələri əsgərlərə qürur dolu məktublar ünvanladılar. Sonra ordu həyatından bəhs edən film nümayiş etdirildi.

Tədbir iştirakçıları Milli Qəhrəmanın Məzəm kəndindəki qəbrini ziyarət etdi, üstünə gül dəstələri düzərək hörmət və ehtiramlarını bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyənin dövlət strukturlarında fəaliyyət göstərən 44 FETÖ üzvü saxlanılıb



Türkiyədə FETÖ terror təşkilatına qarşı növbəti genişmiqyaslı əməliyyat keçirilib.

Bu barədə ölkənin daxili işlər naziri Ali Yerlikaya bildirib.

O qeyd edib ki, Türkiyədə terror təşkilatı mənsublarının aşkarlanması istiqamətində aparılan araşdırmalarda ölkənin dövlət strukturlarında aktiv fəaliyyət göstərən 46 nəfərin FETÖ ilə əlaqəsinin olduğu müəyyənləşdirilib. Onların Türkiyənin rəsmi orqanlarında terror təşkilatının "gizli məsul şəxsi" olaraq fəaliyyət göstərdiyi bildirilir. Şübhəlilərin saxlanılması istiqamətində başladılan əməliyyat mərkəzi Ankara olmaqla Türkiyənin 28 vilayətində paralel şəkildə aparılıb. Nəticədə şübhəlilərdən 44-ü ələ keçirilib.

### ABŞ Böyük Britaniyaya iki strateji bombardmançı təyyarə göndərib



Birləşmiş Ştatlar təlimlər üçün planlaşdırılan yerləşdirmə çərçivəsində Böyük Britaniyaya iki "B-52 Stratofortress" bombardmançı təyyarə göndərib.

Bu barədə Pentaqonun mətbuat katibi, general Patrik Rayder bildirib.

"Bu təyyarələr NATO müttəfiqləri və regional tərəfdaşlarla birlikdə təlim və əməliyyat tədbirləri keçirmək üçün çoxsaylı imkanlar açacaq", - deyə general qeyd edib.

Pentaqon rəsmisi, həmçinin vurğulayıb ki, ABŞ NATO təlimləri çərçivəsində mütəmadi olaraq öz bombardmançılarını Avropaya göndərir.

### Nigerdə yaraqlıların hücumu nəticəsində azı 7 əsgər öldürülüb



Nigerin qərbində azı 7 əsgər yaraqlıların hücumunun qurbanı olub.

Hücum Burkina-Faso ilə sərhəd yaxınlığındakı Tillaberi bölgəsində baş verib. Hərbçilər də öz növbəsində onlarla yaraqlını zərərsizləşdirə biliblər.

Niger Müdafiə Nazirliyinin rəhbəri Salifu Modi açıqlamasında terror təhlükəsi ilə mübarizəni davam etdirəcəyinə söz verib.

### Çin ordusu Tayvan separatçılarına "Birgə qılınc" təlimi ilə cavab verib



Çin Xalq Azadlıq Ordusu (ÇXAO) mayın 23-də Tayvan boğazında və Tayvan adasının ətrafında ikigünlük irimiqyaslı hərbi təlimlər keçirib.

Bu barədə ÇXAO-nin şərq qoşunları komandanlığı açıqlama yayıb. "Birgə qılınc-2024A" kod adlı təlim Tayvan adasının ətrafında şimal, cənub və şərq sularında, habelə Kinmen, Matsu, Uçi və Donin adalarında keçirilib. Quru, hərbi hava, hərbi dəniz və raket qoşunlarının cəlb olunduğu təlimdə əsas diqqət dənizdə və havada birgə döyüş qabiliyyətinin və patrul fəaliyyətinin gücləndirilməsinə, döyüş meydanında hərtərəfli nəzarətin birgə ələ keçirilməsi və əsas hədəflərə birgə dəqiq zərbələrin endirilməsinə yönəldilib.

ÇXAO-nun açıqlamasında deyilir ki, hərbi təlim "Tayvanın müstəqilliyi" separatçı fəaliyyətlərə güclü cavab, Çinin daxili işlərinə müdaxilə etmək və təxribat törətmək istəyən xarici qüvvələrə sərt cavabdır.

Qeyd edək ki, mayın 20-də Tayvandakı separatçı qurumun yeni rəhbəri Lay Çinq-tenin andiçmə mərasimi olub. Lay Çinq-te "andiçmə mərasimi"ndə çıxışı zamanı səsləndirdiyi fikirlər, habelə bir neçə ölkədən siyasi fiqurların mərasimdə iştirakı, habelə ABŞ dövlət katibi Entoni Blinken də daxil olmaqla bəzi rəsmi şəxslərin Lay Çinq-teni təbrik etməsi rəsmi Pekinin ciddi narazılığına səbəb olub.

**AZƏRTAC-ın materialları əsasında**

# HDQ-nin "N" hərbi hissəsinin yaradılmasından 32 il ötür





Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsinin yaradılmasından 32 il ötür.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissə 1992-ci il mayın 22-də yaradılıb. Hərbi hissənin formalaşmasında Hərbi Dəniz Qüvvələrinin gəmi və sahil bölmələrinin şəxsi heyəti iştirak edib.

Birinci Qarabağ müharibəsi dövründə hərbi hissənin şəxsi heyəti Laçın, Kəlbəcər, Ağdərə və Ağdam rayonlarının müdafiəsi uğrunda döyüşlərdə iştirak edib, qarşı tərəfin çoxlu sayda canlı qüvvəsini məhv edib, silah və texnikasını sıradan çıxarıb, uğurlu əməliyyatlar nəticəsində bir sıra strateji əhəmiyyətli mövqeləri düşməndən azad edib. Ümumilikdə şəxsi heyət qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib.

Ötən müddətdə hərbi hissənin hərbi qulluqçuları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və yüksək nailiyyətlər qazanıblar.

Bundan başqa, 2016-cı ilin aprelində baş vermiş döyüşlərdə hərbi hissənin şəxsi heyəti düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikasını məhv edib.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də HDQ-nin "N" hərbi hissəsi böyük şücaət göstərib. Torpaqlarımızın düşmən tapdağından azad edilməsində qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə icra edib.

Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən antiterror əməliyyatı zamanı hərbi hissənin şəxsi heyəti mühüm strateji əhəmiyyətli obyektlərin mühafizə və müdafiəsini təşkil edib.

Bu gün hərbi hissə müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlar, döyüş vasitələri və texnikalara malikdir.

## Azərbaycan zabitləri NATO-nun "Ekspert heyətinin işçi görüşü"ndə iştirak ediblər

Azərbaycan Ordusunun zabitləri mayın 22-23-də növbəlilik prinsipinə (bir il Azərbaycanda, bir il Niderlandda) uyğun olaraq, NATO-nun Brunsum Birgə Qüvvələr Komandanlığında "Ekspert heyətinin işçi görüşü"ndə iştirak ediblər.




AZƏRTAC xəbər verir ki, tədbirdə Beynəlxalq Hərbi Qərargah, SHAPE Qərargahı və Brunsum Birgə Qüvvələr Komandanlığından 8 nümayəndə olmaqla ümumilikdə 13 nəfər iştirak edib. Tədbirin keçirilməsində əsas məqsəd 2024-2025-ci illər üzrə əməkdaşlıq fəaliyyətlərinin əlaqələndirilməsi, əməkdaşlıq işinə cəlb olunan azərbaycanlı zabitlərlə şəxsən müzakirələrin aparılması və ümumilikdə NATO ilə praktiki hərbi əməkdaşlıq prosesində qarşıya çıxan bütün məsələlərin aydınlaşdırılması olub. Görüşdə, eyni zamanda, Komandanlığın rəhbər heyətinin iyulun 1-5-də Bakıya səfərinin yekun təfərrüatları müzakirə edilib.

# Asudə vaxt səmərəli təşkil olunur

Hərbi hissələrdə günün nizam qaydalarına uyğun olaraq, əsgərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Asudə vaxt şəxsi heyətin hərtərəfli inkişafı, fiziki, mənəvi və estetik mədəniyyətini, dünyagörüşünü yüksəltmək üçün əsas vasitədir. Hərbi hissələrdə asudə vaxtın səmərəli təşkili üçün məqsədyönlü işlər görülür. İdeoloji otaqlar və istirahət guşələri yaradılır. Asudə vaxtlarında əsgərlər qəzet və jurnallardan hərbi biliklərini artırır, bədii kitablar oxuyur, televiziya verilişlərini, tariximizdən bəhs edən filmləri izləyir, dama, şahmat kimi stolüstü oyunlar oynayırlar. "N" hərbi hissəsində də asudə vaxtın səmərəli təşkil edilməsinin şahidi olduq. İdeoloji otaqda əsgərlər leytenant Xəyal Əhmədlinin rəhbərliyi altında asudə vaxtlarını keçirirdilər. Əsgərlər Əkbər Kərimli ilə Əbülfəz Kəlpalıyev dama oyununda qalib adı uğrunda mübarizə aparırdılar. Taqım komandiri leytenant Xəyal Əhmədli bildirdi ki, zabit və gizirlərimiz də asudə vaxtlarını burada keçirirlər. "Əsgərlərlə birgə televiziya proqramlarını izləyir, radio dinləyir, söhbət edirik. Bu gün isə əsgərlərimiz həm kitab, həm də "Azərbaycan Ordusu" qəzetini oxuyurlar. Həmçinin onların dama oyunundakı mübarizəsini də izləyirəm. İstəyirik ki, vaxtımız səmərəli keçsin, yaddaşımızda xoş xatirələr yaratsın".

- Asudə vaxtın düzgün təşkili gənclərin fiziki, psixoloji və şəxsi keyfiyyətlərinin formalaşmasına və inkişafına kömək edir, təhsilə və biliyə marağını artırır. Onların şəxsiyyət kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Şəxsi heyətin asudə vaxtının maraqlı təşkili həm də əsgərlərin dostluq münasibətlərini möhkəmləndirir. Onlara öz vaxtına düzgün və səmərəli nəzarətetmə duyğusu aşılanır ki, sabah həyatını, taleyini düzgün qurmaqda çətinlik çəkməsinlər.



Əsgər İlkin Qurbanov asudə vaxtlarının səmərəli keçdiyini bildirdi. "Komandirlərimiz bizə həm hərbi peşənin sirlərini öyrədir, həm də qayğı ilə yanaşırlar. Biz də xidmətimizi düzgün təşkil edir, verilən əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetiririk".

Əsgər Məsim Mürşüdov hərbi xidmətin ona qazandırdığı müsbət keyfiyyətlərdən söz açdı: "Hərbi xidmət məni qorxmaz, mərd, cəsur döyüşçü kimi yetişdirib. Komandirlərimizin sayəsində döyüş, atəş, fiziki hazırlıqlarımızı, tarixi biliklərimizi artırırıq. Yuxarı komandanlığın göstərdiyi diqqət və qayğı nəticəsində sosial-məişət şəraitimiz yüksək səviyyədədir. Bizim borcumuz isə şərəflə xidmət etməkdir".

Əsgər Nihad Paşayev yaradılan şəraitdən razılığını bildirdi. "Yuxarı komandanlığa minnətdarıq ki, bizim üçün belə şərait yaradılıb. Asudə vaxtımız səmərəli keçir. Kitab və jurnallar oxuyur, oyunlar oynayır, eyni zamanda, xəbərləri, vətənpərvərlik mövzusunda filmləri izləmək imkanı qazanırıq. Televiziya və "Azərbaycan Ordusu" qəzetinin köməkliyi ilə istər ölkəmizdə, istərsə də beynəlxalq aləmdə baş verən hadisələrdən xəbər tuturuq. Hərbi verilişlərə maraqla baxırıq. Bunlar döyüş ruhumuzu, vətənpərvərlik hisslərimizi daha da artırır".

Əsgər Murad Sultanzadə əsgər yoldaşının sözlərinə qoşularaq əlavə etdi ki, asudə vaxtımızın müəyyən bir hissəsini şəxsi inkişafımıza, dünyagörüşümüzün artırılmasına, sağlamlığımıza, fiziki inkişafımıza sərf edirik. Bu inkişaf həm də mənəvi-psixoloji hazırlığımız üçündür.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan şahmatçısı beynəlxalq turnirin qalibi olub



Birləşmiş Ərəb Əmirliklərinin Şarja şəhərində təşkil edilən şahmat üzrə beynəlxalq turnirə yekun vurulub.

"Masters" yarışında təmsilçilərimizdən ən yaxşı nəticə Aydın Süleymanlıya məxsus olub. Şahmatçı 9 turda 6 xal toplamaqla turniri 10-cu yerdə başa vurub.

Festivalın "Futures" turnirində birinci yerə Aqşin Əlizadə layiq görülüb. Yekunda 7,5 xal toplayan Azərbaycan təmsilçisi əlavə göstəricilərə görə bütün rəqiblərini qabaqlayıb.

Turnirdə üçüncü yeri aktivində 7 xalı olan digər şahmatçımız Yunis Mahmudzadə tutub.

## Yunan-Roma güləşi üzrə Azərbaycan millisi komanda hesabında U-23 Avropa çempionu olub



Bakıda keçirilən U-23 Avropa çempionatında yunan-Roma güləşi üzrə yarışa yekun vurulub.

Azərbaycan millisi qitə birinciliyində uğurlu çıxış edərək tarixi nəticəyə imza atıb.

3 qızıl, 1 gümüş və 4 bürünc medal qazanan yığma 163 xal toplayaraq, ilk dəfə komanda hesabında U-23 Avropa çempionu olub. Analoji yarışda toplanan xallara görə də özünün ən yaxşı nəticəsini reallaşdıran milli komanda ən yaxın izləyicisi Gürcüstanı 25 xal qabaqlayıb. Türkiyə 135 xalla üçüncü yeri tutub.

Azərbaycanın yunan-Roma güləşçilərindən Ziya Babaşov (63 kq), Xasay Həsənli (77 kq), Qurban Qurbanov (82 kq) qızıl, Nihad Quluzadə (60 kq) gümüş, Rəşad Məmmədov (55 kq), Ruslan Nurullayev (72 kq), Laçın Vəliyev (87 kq) və Murad Əhmədiyev (97 kq) isə bürünc medala yiyələniblər.

## Paraatletlərimiz dünya çempionatında 3-cü qızıl medalı qazanıblar



Azərbaycan paraatleti Orxan Aslanov Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb.

T13 kateqoriyasında yarışan idmançı uzunluğa tullanma üzrə yarışda 7.18 metr nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bu, O.Aslanovun ilk dünya çempionluğudur.

Xatırladaq ki, bu, Azərbaycan paraatletlərinin hazırkı dünya çempionatında 3-cü qızıl mükafatıdır. Daha əvvəl Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış üzrə yarışda, Səid Nəcəfzadə uzunluğa tullanmada eyni uğuru təkrarlayıblar.

**AZƏRTAC-ın materialları əsasında**

---

Leytenantlar Göyüşov Mais Azad oğluna məxsus MN № 0058294 nömrəli və Mirzalıyev Nəcməddin Bulud oğluna məxsus SQ № 0017692 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş gizir Aslanov Asif Mahmud oğluna məxsus SQ № 0027796 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Gizirlər İsmayılov Vasif Vaqif oğluna məxsus SQ № 00166364 nömrəli və Əliyev Elçin Fəxrəddin oğluna məxsus SQ № 0025238 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Manafov Bəhruz Saday oğluna məxsus AD № 0064504 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Rövşən Fərzalı oğluna məxsus № 084876 nömrəli Azərbaycan Respublikasının Silahlı Qüvvələri Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini mayor Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
baş leytenant İbrahim MƏMMƏDBƏYOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 278
Nüsxə 4650